Təhsil naziri Mikayıl Cabbarov Elxan Hüseynovu yeni təyinatı münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Nazir qeyd edib ki, ölkəmizdə ali təhsil sahəsində həyata keçirilən islahatlar ali təhsil müəssisələrində şəffaf, səmərəli təhsil mühitinin yaradılması, təhsilin keyfiyyətinin yüksəldilməsi və ali məktəblərin idarə olunması işinin müasir tələblər səviyyəsində qurulması məqsədlərinə xidmət edir. Müasir dövrdə yüksək biliyə malik cəmiyyət quruculuğunun zəruriliyinə toxunan təhsil naziri ali təhsil sahəsində keyfiyyətin təmin olunması üçün istedadlı, öyrənməyə güclü marağı olan tələbə və müasir tədris üsullarını mənimsəmiş müəllim amilinin əsas olduğunu bildirib.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son dövrlər ölkə təhsilində baş verən keyfiyyət dəyişikliklərindən söz açaraq, bunun cəmiyyətin hərtərəfli inkişafına əlavə stimul verdiyini qeyd edib. Sumqayıtın təhsil həyatında mühüm yeri olan SDU-nun yeni rəhbərliyini təbrik edən E.Əzizov bu ali məktəbin fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılacağına əminliyini bildirib.

SDU-nun rektoru Elxan Hüseynov ona göstərilən etimada görə ölkə Prezidentinə minnətdarlığını bildirib və üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirmək üçün var gücü ilə çalışacağını söyləyib. Ali təhsilin xalqın intellektual potensialının və ölkənin gələcək inkişafı baxımından müstəsna rolundan bəhs edən rektor SDU-da yüksək səviyyəli təhsil mühitinin yaradılmasına nail olmaq üçün geniş imkanların olduğunu nəzərə çatdırıb.

Məlumat üçün qeyd edək ki, Elxan Bahadur oğlu Hüseynov Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirib. 1985-ci ildə Azərbaycan Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edib, 1994-cü ildə dosent elmi adı alıb. 1991-1995-ci illərdə Bakı Dövlət Universitetinin (BDU) fəlsəfə kafedrasının dosenti, 1995-ci ildən BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, 1999-2002-ci illərdə isə birinci prorektor-tədris işləri üzrə prorektor vəzifələrində çalışıb. 2002-2010-cu illərdə Azərbaycan Respublikasının Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsində fəaliyyət göstərib. 2010-2011-ci illərdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, 2013-cü ilin avqustun 15-dən təhsil nazirinin müşaviri vəzifəsində işləyib. 2013-cü ilin dekabrın 18-dən SDU-nun tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunub və müvəqqəti olaraq bu ali məktəbin rektoru vəzifəsini icra edib.